***“Ölkə Prezidenti cənab İlham Əliyevin işğaldan azad olunmuş rayon və bölgələrimizə səfərləri və bu zaman həmin ərazilərdə başlanmış quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin əsasının birbaşa dövlət başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm də mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb edir”. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev dövlət başçısının Qarabağın cənub rayonlarına budəfəki səfərinin önəmi ilə bağlı mediaya açıqlamasının davamında bildirib:***

# Qarabağda başlanmış irimiqyaslı layihələr Azərbaycan dövlətinin qüdrətindən xəbər verir

– Prezident İlham Əliyevin fevral ayının 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfəri zamanı təməli qoyulan Horadiz--Ağbənd dəmir yolunun çəkilişi Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən bir layihənin başlanğıcı kimi qiymətləndirilməlidir: İlk növbədə, qeyd etmək lazımdır ki, ölkə rəhbəri İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə növbəti dəfə işğaldan azad edilmiş rayonlarımıza səfər etməklə bu ərazilərin dövlətimiz və xalqımız üçün necə qiymətli olduğunu, Azərbaycanın Qarabağa əbədi döndüyünü bir daha bütün dünyaya açıq və qəti şəkildə nümayiş etdirdilər.

Məlumdur ki, bu gün Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərdə intensiv şəkildə bərpa-quruculuq işləri həyata keçirməkdədir. Bu işlər çərçivəsində inşasına başlanılan mühüm strateji obyektlərin, müəssisələrin təməlini şəxsən Prezident İlham Əliyevin qoyması görülən işləri ölkə rəhbərinin xüsusi diqqət mərkəzində saxlamasından xəbər verir. Füzuli rayonunda olarkən möhtərəm Prezidentimiz Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoydu. Ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin asanlaşmasında, bölgəyə ağır yüklərin rahat daşınmasında əhəmiyyətli rol oynayacaq və ən əsası da bu xətt Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu əlaqəsinin yaranmasına böyük töhfə verəcək.

Bildiyiniz kimi, 2020-ci il noyabrın 10-da Azərbaycan və Rusiya prezidentləri, habelə Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanat ölkəmizin öz torpaqlarını işğaldan azad etmək uğrunda apardığı Vətən müharibəsinin Azərbaycanın tam qələbəsi ilə başa çatmasını hüquqi cəhətdən təsdiq etməklə yanaşı, həm də özündə müharibədən sonrakı dövr üçün regionun iqtisadi inkişafına dair mühüm məqamlar əks etdirir. Bəyanatın 9-cu maddəsində qeyd olunur ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Başqa sözlə desək, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının



inşası təmin ediləcək. Artıq fevral ayının 14-də Prezident İlham Əliyev Horadiz--Ağbənd dəmir yolu xəttinin təməlini qoymaqla 10 noyabr bəyanatının həmin maddəsinin icrasına start verdi. Heç şübhəsiz, bir müddət sonra biz hamımız birbaşa Naxçıvana aparan dəmiryolu xəttinin açılışının da şahidi olacağıq.

Daha sonra AHİK sədri vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərdə “ağıllı kənd” və “ağıllı şəhər” layihələrinin icrasına başlanması bu rayon və bölgələrimizin ən yüksək standartlara cavab verən müasir yaşayış məkanlarına çevriləcəyindən xəbər verir:

– Ölkə Prezidenti cənab İlham Əliyev Zəngilanda olarkən bildirdi ki, artıq bu rayonda birinci “ağıllı kənd” layihəsinin icrasına start verilib. Bu layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı”, alternativ enerji sahələridir. Məlumdur ki, dövlətimizin başçısı öz çıxışlarında azad olunmuş ərazilərin “yaşıl enerji” zonasına çevriləcəyini dəfələrlə bildirib. İşğaldan azad olunmuş ərazilərin dövlətimizin başçısının birbaşa təşəbbüsü və tapşırıqları ilə bərpa edilməsi və yenidən qurulması, xüsusən də bu ərazilərdə “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının reallaşdırılması həmin rayon və bölgələrimizi ən yüksək standartlara cavab verən müasir yaşayış məkanlarına çevirəcək.

Etiraf etmək lazımdır ki, bu gün pandemiya şəraitində bütün dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Azərbaycan Prezidentinin bu təşəbbüsü bir daha dövlətimizin gücünü və qüdrətini nümayiş etdirir.

***Hazırladı: Tahir AYDINOĞLU, “Xalq qəzeti”***